# "Azərbaycan Zəfəri"

**Kitab mədəniyyətində miniatür nəşrlərin xüsusi yeri var. Artıq dünya mədəniyyəti bu üsuldan kifayət qədər istifadə edir. Ölkəmizdə də miniatür kitab nəşri sahəsində həm təcrübə, həm də maraqlı materiallar kifayət qədərdir. Hətta neçə illərdir ki, Bakıda fəaliyyət göstərən Miniatür Kitab Muzeyinin ekspozisiyasında dünyada məşhur olan, ən nadir incilərdən hesab edilən, kiçikhəcmli, böyük dəyərli nüsxələrə rast gəlmək olar.**










Azərbaycan Respublikası "Kitab" Cəmiyyətinin xəttilə Ulu Öndərlə bağlı 37 müxtəlif ölçülərdə buraxılan həmin kitabların hamısı Heydər Əliyev Fondunda və bütün dünyada analoqu olmayan Miniatür Kitab Muzeyində nümayiş etdirilir. Təkrarsız sənət inciləri kimi yaradılan həmin kitablar "İndiqo" nəşriyyatında çap olunub.

Xatırladaq ki, Azərbaycanda minatür kitab buraxılışı ilə məşğul olan, "Kitab" Cəmiyyətinin sədri, Miniatür Kitab Muzeyinin təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın Heydər Əliyev irsini həm də bu cür kitablarla təbliğ etmək fəaliyyəti 1993-cü ildən, Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı dövrdən başlanıb.

Cəmi 44 günlük Vətən müharibəsində qazandığımız Qələbəyə də Minatür Kitab Muzeyi öz töhvəsini verdi. Dilarə Seyidzadə və Zərifə Salahovanın tərtibatında, 55x55 mm ölçüdə, 352 səhifəlik (7 rəngli foto da daxil), forzası Azərbaycan xəritəsi olan, Miniatür Kitab Muzeyinin sifariçi ilə, 100 nüsxədən ibarət Azərbaycan, rus və ingilis dillərində çapdan buraxılan "Qarabağ Azərbaycandır!", "Azərbaycan Zəfəri" və "Карабах - это Азербайджан!" kitablarında dövlət başçısının 27 sentyabr-8 noyabr 2020-ci il tarixlərdə Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciəti verilib.

"Qarabağ Azərbaycandır!" mini nəşri Ulu Öndər Heydər Əliyevin vaxtilə xalqa etdiyi müraciəti ilə açılır ki, bu da, ilk növbədə, Ümummilli Liderin siyasətinə xalq məhəbbətinin tükənməzliyinin bariz nümunəsidir. Həmçinin həmin müraciət kitabın siyasi, ictimai mahiyyətini bir daha artırmış olur.

Əsas mətni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 noyabr 2020-ci il tarixli xalqa müraciəti olan "Qarabağ Azərbaycandır!" kitabında "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı" verilib.

Azərbaycan Prezidentinin işğaldan azad olunan rayonların əhalisinə verdiyi qələbə müjdəli müraciətlərinin də kitabda yer alması nəşrlərin dəyərini qat-qat artırmış olur.

Ümumiyyətlə, hər üç yeni nəşr Miniatür Kitab Muzeyində bir-birindən dəyərli kitabların arasında xüsusi çəkiyə malikdir. Diqqəti çəkən cəhətlərdən biri də budur ki, həcmcə kiçik olduqlarına baxmayaraq, bu kitablar bir-birinə bənzəmir. Üz qabıqları üçün maraqlı, bir-birindən fərqli formalar düşünülüb. Qələbə soraqlı xəbərlərin xalq coşqusunu əks etdirən foto-şəkillər məzmunu bir qədər də mənalandırır. Ümumiyyətlə, nəşrlər yüksək tərtibat cəhətdən xeyli fərqlənirlər.

Miniatür Kitab Muzeyinin direktoru, kitabların buraxılışına məsul Zərifə Salahova deyir ki, yeni nəşrlər muzeydəki incilərin arasında ona görə xüsusi çəkiyə malikdir ki, onlar xalqımızın illərlə gözlədiyi və nəhayət, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti - "Dəmir yumruq" siyasəti ilə Qarabağa sülh və azadlıq gətirdiyini tarixiləşdirir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*